ATJ, 2023, №2, 133-138

AZƏRBAYCAN TİBB JURNALI
AZERBAIJAN MEDICAL JOURNAL

DOI: 10.34921/amj.2023.2.021

E.S.Mehdiyev

# HƏRBİ QULLUQÇULARIN AİLƏ VƏZİYYƏTİNİN İNTİHAR DAVRANIŞINA TƏSİRİ

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi Baş Klinik Hospitalının Psixiatriya bölməsi, Bakı, Azərbaycan*

*Məqalədə suisidentlərin əsas sosial-demoqrafik xüsusiyyətlərinin təhlili məqsədilə, intihar davranışının formalaşmasına təsir edən bir sıra makro- və mikrososial amillərin öyrənilməsinin nəticələri təqdim olunur. Tədqiqatda 2001-2011-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının Psixiatriya bölməsində müayinə və müalicədə edilən, intihara cəhd etmiş 205 nəfər hərbi qulluqçu klinik olaraq araşdırılmışdır. Tədqiqat nəticəsində, sıravi heyət arasında intihara cəhd etmiş hərbi qulluqçuların ailə strukturuna görə, tam ailədə böyümüş əsgərlərlə natamam ailədə tərbiyə alan əsgərlər arasında fərq olmamışdır və müvafiq olaraq 47,4% (64 nəfər) və 52,6% (71 nəfər) təşkil etmişdir (p>0,05). Sıravi heyət arasında intihara cəhd etmiş hərbi qulluqçuların ailəsinin harmonik dərəcəsinə görə dürüstlük müəyyən edilməmişdir (p>0,05). Müəllifin fikincə, intihara cəhd edən zabit və sıravi heyətin hərbi qulluqçularının ailələrinin struktur xüsusiyyətləri müxtəlif yönümlüdür. Davranış dəyişikliklərinin formalaşmasına əsas təsir edən amillərdən və o cümlədən də özünü məhv edən davranış və onun ən son həddi olan – intihar cəhdi, ailədə valideyn nəzarətinin və tərbiyəsinin düzgün verilməməsi səbəb olmuşdur.*

***Açar sözlər:*** *intihar davranışı, hərbi qulluqçular, harmonik və disharmonik ailə, sosial status*

***Ключевые слова:*** *суицидальное поведение, военнослужащие, гармоничная и дисгармоничная семья, социальный статус*

***Key words:*** *suicidal behavior, military personnel, harmonious and disharmonious family, social status*

Son illər intihar davranışının formalaşmasında sosial əhatənin rolu tədqiqatçıların diqqət mərkəzindədir [1; 2]. Ədəbiyyatda intihar hadisəsinin patogenezində mikrososial amillərin, suisidentin yaxın ətrafında olanların (ailə, istehsalat kollektivi, şəxsi heyət və s.) təsir etməsi haqqında məlumatlara geniş yer verilir [3-5]. Son onilliklərdə tədqiqatçıların cəmiyyətdə, ölkədə və dünyada sosial şəraitin xüsusiyyətlərindən asılı olaraq, mikrososial amillərin intihar hadisəsinə təsirinə çox diqqət yetirilir [6-8].

Bir çox tədqiqatçıların [8-12] nəticələrinə əsasən hesab edilir ki, ailədaxili xüsusiyyətlər uşağın inkişafına kifayət qədər təsir göstərir. Onun davranışının uyğunlaşma reaksiyalarının və uyğunlaşmamasının formalaşmasında böyük rolu vardır və o cümlədən də yeniyetmələrdə ümumi davranış reaksiyası kimi bir variant hesab edilən intihar davranışına təsir edir. Biz yuxarıda göstərilənləri nəzərə alaraq, suisidentlərin əsas sosio-demoqrafik xüsusiyyətlərini təhlil etmiş və intihar davranışının formalaşmasına təsir edən bir sıra makro- və mikrososial amilləri araşdırmışıq.

**Tədqiqatın məqsədi** – intihar davranışının formalaşmasına təsir edən bir sıra makro- və mikrososial amillərin öyrənilməsi olmuşdur.

**Tədqiqatın material və metodları** – 2001-2011-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının Psixiatriya bölməsində müayinə və müalicədə olan, intihara cəhd etmiş 205 nəfər hərbi qulluqçu klinik olaraq araşdırılmışdır. Tədqiq edilənlərin hamısının diaqnozu Xəstəliklərin Beynəlxalq Təsnifatının 10-cu baxışının (XBT-10) müddəalarına görə, "Şüurlu sürətdə, bilərəkdən özünə xəsarət yetirmə" X-60–X-84 şifrinə uyğun olmuşdur. Tədqiqatda klinik-psixopatoloji, klinik-dinamik, klinik-katamnestik (katamnez müddəti 1 il) və eksperimental-psixoloji metodlardan istifadə edilmişdir. Tədqiqatın nəticələrinin statistik işlənməsi zamanı Fişerin Dəqiq Üsulu (n<5 olduqda) tətbiq edilmişdir. Statistik araşdırmalar MS EXCEL və SPSS proqramlarından istifadə edilməklə aparılmışdır.

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Bizim tədqiqatda, ailə strukturunun təsnifatı belə verilmişdir: hər iki valideynin

*Cədvəl 1.* **İntihara cəhd etmiş hərbi qulluqçuların ailə strukturuna görə paylanması**

| № | Ailə strukturu | Zabitlər (n=70) | | Əsgərlər (n=135) | | Fərqin dürüstlüyü |
|---|---|---|---|---|---|---|
| | | müt. | % | müt. | % | |
| 1 | Tam ailə | 48 | 68,6±5,2 | 64 | 47,4±3,9 | p<0,01 |
| 2 | Natamam ailə | 21 | 30±2,7 | 71 | 52,6±4,8 | p<0,005 |
| | $P_1$ | p<0,001 | | p>0,05 | | |
| 3 | Yetim | 1 | 1,4±0,8 | – | – | – |
| | $P_1$ | p<0,001 | | – | | |
| | $P_2$ | p<0,001 | | – | | |

***Qeyd:*** *$P_1$ – 1-ci, $P_2$ – 2-ci göstəricilərlə müqayisədə fərqin etibarlılığı*

olması – tam ailə, valideynlərdən birinin olmaması (bir qayda olaraq, atası) – natamam ailə, hər iki valideynin olmaması – yetim.

Müəyyən edilmişdir ki, tam ailədə böyümüş zabit heyətindən intihara cəhd etmiş hərbi qulluqçular, natamam ailədə tərbiyə alan zabitlərə nisbətdə iki dəfə artıq olmuşdur, bu da müvafiq olaraq 68,6% və 30,0% təşkil etmişdir (cədvəl 1).

Tədqiqat nəticəsində, sıravi heyət arasında intihara cəhd etmiş hərbi qulluqçuların ailə strukturuna görə, tam ailədə böyümüş əsgərlərlə natamam ailədə tərbiyə alan əsgərlər arasında fərq olmamışdır və müvafiq olaraq 47,4% (64 nəfər) və 52,6% (71 nəfər) təşkil etmişdir (p>0,05).

Aparılan tədqiqatın nəticələrinə əsasən müəyyən edilmişdir ki, intihara cəhd zabit və sıravi heyətin hərbi qulluqçularından ailənin struktur xüsusiyyətlərindən asılı olaraq müxtəlif yönümlüdür.

Bundan başqa, ailədəki münasibətlərin etibarlılıq və harmonik səviyyəsi müəyyən edilmişdir. Buna görə də biz iki növ ailə ayırd etmişik: 1) harmonik – bu ailənin üzvləri hərbi qulluqçunun yeniyetmə dövründə onun üçün vacib olan şəraitdə ona dəstək olublar, probleminin həllində ona kömək olmalarını dərk ediblər; 2) disharnonik – bu ailədə münasibətlər aşkar və ya gizli şəkildə aqressiv xüsusiyyətli olmuş, ailə üzvləri problemin həllində suisidenti dəstəkləməyiblər.

Tədqiqat nəticəsində, sıravi heyət arasında intihara cəhd etmiş hərbi qulluqçuların ailəsinin harmonik dərəcəsinə görə dürüstlük müəyyən edilməmişdir (p>0,05).

Beləliklə, disharmonik ailədən olan zabit heyətinin hərbi qulluqçuları arasında intihar hallarına daha çox rast gəlinmişdir.

*Cədvəl 2.* **İntihara cəhd etmiş hərbi qulluqçuların valideynlərinin sosial statusuna görə bölgüsü**

| № | Ailə strukturu | Zabitlər (n=70) | | Əsgərlər (n=135) | | Fərqin dürüstlüyü |
|---|---|---|---|---|---|---|
| | | müt. | % | müt. | % | |
| 1 | Qulluqçu | 38 | 54,3±5,1 | 49 | 36,3±3,1 | p<0,025 |
| 2 | Fəhlə | 24 | 34,3±2,8 | 80 | 59,3±4,3 | p<0,001 |
| | $p_1$ | p<0,05 | | p<0,001 | | |
| 3 | İşsiz | 8 | 11,4±0,7 | 6 | 4,4±1,2 | p>0,05 |
| | $p_1$ | p<0,001 | | p<0,001 | | |
| | $p_2$ | p<0,005 | | p<0,001 | | |

***Qeyd:*** *$P_1$ – 1-ci, $P_2$ – 2-ci göstəricilərlə müqayisədə fərqin etibarlılığı.*

Bizim tədqiqatda hərbi qulluqçuların valideynlərinin sosial statusu təhlil edilmişdir. Zabit heyətindən intihara cəhd etmiş hərbi qulluqçuların valideynlərinin sosial statusu aşağıdakı kimi olmuşdur: qulluqçu – 38 (54,3%), fəhlə - 24 (34,3%), işsiz 8 (11,4%) (cədvəl 2).

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sıravi heyət arasında intihara cəhd etmiş hərbi qulluqçuların valideynlərinin sosial statusu aşağıdakı kimi olmuşdur: qulluqçu – 49 (36,3%), fəhlə – 80 (59,3%), işsiz – 6 (4,4%).

Zabit heyətinin valideynlərinin sosial statusuna görə əsasən qulluqçu olanlar üstünlük təşkil etmişdir, əsgər heyətində isə, valideynlərinin sosial statusuna görə fəhlə ailələrindən olanlar çoxluq təşkil etmişdir.

Davranışın dəyişikliklərinin formalaşmasına əsas təsir edən amillərdən və o cümlədən də özünü məhv edən davranış və onun ən son həddi olan intihara cəhdin səbəbi, ailədə valideyn nəzarətinin və tərbiyəsin düzgün verilməməsi olmuşdur.

Bizim tədqiqatda, müvafiq olaraq ailədə valideyn nəzarətinin və tərbiyəsini formalarına görə aşağıdakı qruplara bölmüşük: zəif himayəçilik, artıq himayəçilik, emosional soyuqluq, yüksək mənəvi məsuliyyət.

Ailədə zəif himayəçilik nəticəsində, yeniyetməlik dövründə şəxsin davranışına nəzarətin olmaması, kifayət qədər diqqət yetirilməməsi, qayğısına və rəhbərliyinə, yeniyetmənin gündəlik işinə, onun həyəcanlarına və maraqlarına valideynlərin həqiqi marağının olmaması müşahidə edilmişdir. Bu hallar özünü daha da qabarıq tərzdə uşağın ən cüzi gündəlik ehtiyaclarına, qidalanmasına, geyiminə və s. laqeydlik olmuşdur. Bəzən gizli zəif himayəçiliyin elə halı aşkar edilmişdir ki, sanki bütün həyat boyu yeniyetmənin davranışına nəzarət olunub, lakin real olaraq bu bir formalizm kimi qiymətləndirilə bilər.

Ailədə artıq himayəçiliyi biz, həddindən artıq qəyyumluq, yeniyetmənin hər addımına belə nəzarət olunması kimi qiymətləndiririk. Bu zaman daim qadağalar, fərdin sərbəstliyinə və fəaliyyət dairəsinə məhdudiyyətlərin qoyulması olmuşdur. Himayəçiliyin bu forması, tərbiyənin üslubundan asılı olaraq yeniyetmə üçün valideyn xüsusi varlıq kimi qiymətləndirilməklə, onun sözü, göstərişi ailədə qanun hesab edilmişdir. Hansı ailədə uşaq "ailənin pərəstişgahı" hesab edilibsə o, daim nəzarətdən başqa, hədindən artıq himayəçilk təsiri altında olan insan kimi xarakterizə olunmuşdur. Uşağı bütün çətinliklərdən və xoşagəlməz məsuliyyətli işlərdən azad etməklə, hətta onun qabiliyyəti və bacarığı xüsusi qeyd edilmişdir.

Ailədə emosional soyuqluq zamanı, yeniyetmə daim həyatda valideynlərinin gözündə özünü ağır bir yük kimi hiss etmişdir. Bu daha çox elə ailələrdə hiss olunmuşdur ki, yaxınlıqda kimsə (qardaş və ya bacı, əsasən də ögey olanda), analıq və ya atalıq tərəfindən daha sevimli və doğma kimi qəbul edilmişdir.

Tərbiyənin emosional soyuqluq forması bizim tərəfimizdən fiziki, ölçülməyən günahlar, əzazil cəzalandırılmalara və ya psixoloji işkəncələrə aid edilən tərbiyə dərəcəsi kimi ayırd edilmişdir.

Ailədə yüksək mənəvi məsuliyyət haqqında

***Cədvəl 3.* İntihara cəhd etmiş hərbi qulluqçuların ailədə valideyn tərbiyəsinin və nəzarətinin formasına görə bölgüsü**

| № | Tərbiyənin forması | Müt. | % | $P_1$ | $P_2$ | $P_3$ | $P_4$ |
|---|---|---|---|---|---|---|---|
| | | zabitlər (n=70) | | | | | |
| 1 | Zəif himayəçilik | 26 | 37,1±2,4 | – | – | – | – |
| 2 | Artıq himayəçilik | 11 | 15,7±1,3 | <0,01 | – | – | – |
| 3 | Emosional soyuqluq | 18 | 25,7±0,6 | >0,05 | >0,05 | – | – |
| 4 | Yüksək mənəvi məsuliyyət | 7 | 10±1,8 | <0,001 | >0,05 | <0,05 | – |
| 5 | Normal tərbiyə | 8 | 11,4±1,4 | <0,001 | >0,05 | <0,05 | >0,05 |
| | | əsgərlər (n=135) | | | | | |
| 1 | Zəif himayəçilik | 42 | 31,1±2,5 | – | – | – | – |
| 2 | Artıq himayəçilik | 45 | 33,4±2,2 | >0,05 | – | – | – |
| 3 | Emosional soyuqluq | 18 | 13,3±0,8 | <0,001 | <0,001 | – | – |
| 4 | Yüksək mənəvi məsuliyyət | 4 | 3,0±1,47 | <0,001 | <0,001 | <0,001 | – |
| 5 | Normal tərbiyə | 26 | 19,3±0,7 | <0,05 | <0,02 | >0,05 | <0,001 |

***Qeyd:*** *$P_1$ – 1-ci, $P_2$ – 2-ci, $P_3$ – 3-cü, $P_4$ – 4-cü göstəricilərlə müqayisədə fərqin etibarlılığı*

*Cədvəl 4.* **İntihara cəhd etmiş hərbi qulluqçuların ailə vəziyyətinə görə bölgüsü**

| № | Ailə vəziyyəti | Zabitlər (n=70) | | Əsgərlər (n=135) | | Fərqin dürüstlüyü |
|---|---|---|---|---|---|---|
| | | müt. | % | müt. | % | |
| 1 | Evli | 42 | 60±5,1 | 25 | 18,5±2,1 | p<0,025 |
| 2 | Subay | 16 | 22,9±2,3 | 104 | 77±7,2 | p<0,001 |
| | $p_1$ | p<0,001 | | p<0,001 | | |
| 3 | Boşanmış | 12 | 17,1±1,6 | 6 | 4,4±3,6 | p>0,05 |
| | $p_1$ | p<0,001 | | p<0,001 | | |
| | $p_2$ | p>0,05 | | p<0,001 | | |

***Qeyd:*** *$P_1$ – 1-ci, $P_2$ – 2-ci göstəricilərlə müqayisədə fərqin etibarlılığı*

danışdıqda, valideyn öz övladının qabiliyyətinə və bacarığına görə onun gələcəyinə böyük ümidlərlə baxıblar. Bu zaman onlar, özlərinin həyata keçirə bilmədikləri arzu və istəklərini onun tərəfindən real həyata keçirəcəyinə inanıblar, ümid bəsləyiblər.

Tədqiqatın məlumatlarına əsasən, zabit heyətindən olan suisidentlər, əsasən zəif himayəçilik olan ailədə tərbiyə alıblar (26-37,1%) və ailədə emosional soyuqluq (18-25,7%) olmuşdur (cədvəl 3).

İntihar davranışı nadir hallarda, artıq himayəçilik (11-15,7%) və həm də uşağa yüksək mənəvi məsuliyyət hissi yükləyən ailələr də rast gəlinmişdir (7-10,0%). Normal tərbiyə ancaq 8 (11,4%) ailə üçün xarakterik olmuşdur.

Sıravi heyət arasında olan suisidentlər, əsasən artıq (45-33,4%) və zəif himayəçilik olan ailədə tərbiyə alanlar (42-31,1%) olmuşdur. Normal tərbiyə 26 (19,3%) ailə üçün xarakterik olmuşdur. Emosional soyuqluq 18 (13,3%) nəfərdə qeyd olunmuşdur.

Beləliklə, müəyyən edilmişdir ki, zabit heyətində əsasən zəif himayəçilik və emosional soyuqluq olan ailədə tərbiyə alanlar, əsgər heyətində isə, zəif və artıq himayəçilik olan ailədə tərbiyə alanlar olmuşdur.

Hərbi qulluqçular arasında intihar edənlərin ailə vəziyyətinin qiymətləndirilməsi göstərmişdir ki, zabitlərdən 42 (60%) nəfər evli, 16 (22,9%) nəfər subay və 12 (17,1%) nəfər boşanmış olub (cədvəl 4).

Sıravi heyət arasında intihar edənlərin ailə vəziyyətinin qiymətləndirilməsi göstərmişdir ki, 25 (18,5%) nəfər evli, 104 (77,0%) nəfər subay və 6 (4,5%) nəfər boşanmış olub.

Beləliklə, müəyyən edilmişdir ki, intihar davranışı müşahidə edilən zabitlər arasında evli olanlara daha çox, əsgərlər arasında isə subaylar daha çox olmuşdur.

Sıravi heyət arasında intihar edənlərin nikahlarının sayına görə müəyyən edilmişdir ki, 24 (96,0%) nəfərin birinci nikahı olub. Ancaq cəmi 1 (4,0%) nəfər ikinci nikahda olub.

Zabit heyəti arasında intihar edənlərin nikahlarının sayına görə müəyyən edilmişdir ki, 38 (90,5%) nəfərin birinci nikahı olub. Ancaq cəmi 4 (9,5%) nəfər ikinci nikahda olublar.

Hər iki qrupda müayinə edilənlər birinci nikahda olmaqla intihar davranışı yüksək olmuşdur. Bu da onun intihar davranışına təsir etməsinə mane olmadığını göstərir.

Ailə amilinin olması ilə birlikdə, bizim tərəfimizdən ailə münasibətlərinin xüsusiyyətləri də öyrənilmişdir. Nəzərə alsaq ki, daima ailədə olan münaqişə vəziyyəti, intihar davranışının yaranmasının inkişaf etməsinə və intihar cəhdinin həyata keçirilməsində əsas amillərdən biri hesab edilir. Tədqiqat göstərmişdir ki, ancaq 9 (21,4%) zabitin ailəsində qənaətbəxş münasibət olub. Zabitlərin 6 (14,3%) nəfərində ailə münasibətləri formal xarakter daşımışdır, 27 (64,3%) nəfərində isə, daim münaqişələr olmuşdur (cədvəl 5).

Sıravi heyət arasında ailədə şəxsiyyətlər arasında münasibətlərin öyrənilməsində müəyyən edilmişdir ki, onların 15 (60%) nəfərində ailə münasibətləri qənaətxəş olub. 4 (16%) nəfərin ailə münasibətləri formal xarakter daşıyıb, ancaq 6 (24%) nəfərdə ailədə

***Cədvəl 5.* İntihara cəhd etmiş hərbi qulluqçuların ailəsində ailə üzvləri arasında münasibətlərə görə bölgüsü**

| № | Ailədaxili münasibət | Zabitlər (n=42) | | Əsgərlər (n=25) | |
|---|---|---|---|---|---|
| | | müt. | % | müt. | % |
| 1 | Qənaətbəxş | 9 | 21,4±1,1 | 15 | 60±3,2 |
| 2 | Formal | 6 | 14,3±0,7 | 4 | 16±1,1 |
| | $P_1$ | p>0,05 | | p=0,002 | |
| 3 | Münaqişələr | 27 | 64,3±4,2 | 6 | 24±1,3 |
| | $P_1$ | p<0,001 | | p<0,02 | |
| | $P_2$ | p<0,001 | | p>0,05 | |

***Qeyd:*** *$P_1$ – 1-ci, $P_2$ – 2-ci göstəricilərlə müqayisədə fərqin etibarlılığı*

daim münaqişələr olmuşdur.

Beləliklə, aparılan tədqiqatın nəticələri göstərmişdir ki, zabit və sıravi heyətin hərbi qulluqçuların intihar cəhdləri ailənin struktur xüsusiyyətlərindən asılı olub, müxtəlif yönümlüdür. Disharmonik ailədən olan zabit heyətinin hərbi qulluqçuları arasında intihar hallarına daha çox rast gəlinmişdir. Zabit qrupundan olan şəxslərin ailəsində ailə üzvləri arasındakı münasibətlərdə münaqişə vəziyyəti üstünlük təşkil etmişdir. Sıravi qrupda isə ailə münasibətləri qənaətbəxş olub. Zabit heyətinin valideynlərinin sosial statusuna görə əsasən qulluqçu olanlar üstünlük təşkil etmişdir, əsgər heyətində isə, valideynlərinin sosial statusuna görə fəhlə alələrindən olanlar çoxluq təşkil etmişdir. Davranışın dəyişikliklərinin formalaşmasında əsas təsir edən amillərdən və o, cümlədən də özünü məhv edən davranış və onun ən son həddi olan – intihar cəhdi, ailədə valideyn nəzarətinin və tərbiyəsinin düzgün verilməməsi səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. World Health Organization. Suicide Worldwide in 2019: Global Health Estimates 2021. Available online: https: //apps. who. Int /iris /bitstream /handle /10665/341728/9789240026643-eng.pdf?sequence=1 (accessed on 21 January 2021).
2. LeCloux M., Maramaldi P., Thomas K.A. [et al]. A longitudinal study of health care resources, family support, and mental health outcomes among suicidal adolescents: study of health care resources, family support, and mental health outcomes. //Anal. Soc. Issues Public Policy 2017, 17. 319-338. [CrossRef].
3. Alvarez-Subiela X., Castellano-Tejedor C., Villar-Cabeza F. [et al]. Family factors related to suicidal behavior in adolescents. //Int. J. Environ. Res. Public Health 2022, 19, 9892. https://doi.org/10.3390/ijerph19169892.
4. Park Y.S., Park E.C. Association between parental marital status and types of suicidal behavior among Korean adolescents: A cross-sectional study. //J.Prev.Med,Public Health. 2020 Nov; 53(6); 419-428.
5. Clark C.B., Li Y., Cropsey K.L. Family dysfunction and suicide risk in a community corrections sample //Crisis 2016, 37, 454-460. [CrossRef].
6. Thompson M.P., Swartour K. Epidemiology of suicide attempts among youth transitioning to adulthood //J. Youth Adolesc. 2018, 47, 807-817. [CrossRef].
7. Zatti C., Rosa V., Barros A. [et al]. Childhood trauma and suicide attempt: a meta-analysis of longitudinal studies from the last decade. //Psychiatry Res. 2017, 256, 353-358. [CrossRef].
8. Perales F., Johnson S.E., Baxter J. [et al]. Family structure and childhood mental disorders: new findings from Australia //Soc. Psychiatry Psychiatr Epidemiol. 2017;52(4);423-433. [PubMed].
9. Sandip S.J., Naik J.D. Study of family factors in association with behavior problems amongst children of 6-18 years age group //Int J Appl Basic Med Res. 2014 Jul-Dec; 4(2):86-89.
10. Kuttichira P. The phenomenon of family suicides: An explorative study into consecutive 32 incidents in Kerala //Indian J Psychol Med. 2018 Mar-Apr;40(2):108-112. doi: 10.4103/IJPSYM_109_17.
11. Masson D., Gollard M. Jeues suicidentset leur famille П // Soc. Psychiatry.– 2013. Feb. – Vol. 127, № 2. – p. 117-125.
12. Мишина Т.М., Самохина Т.В. Социально-психологическое исследование родительских семей суицидентов // Социально-психологические исследования в психоневрологии. – 2012. № 2. – с. 21-24. [Mishina T. M., Samohina T. V. Social'no-psihologicheskoe issledovanie roditel'skih semej suicidentov // Social'no-

psihologicheskie issledovanija v psihonevrologii. – 2012. № 2. – с. 21-24.]

**Э.С.Мехтиев**

## ВЛИЯНИЕ СЕМЕЙНОГО ПОЛОЖЕНИЯ НА СУИЦИДАЛЬНОЕ ПОВЕДЕНИЕ ВОЕННОСЛУЖАЩИХ

*Главный клинический госпиталь Министерства обороны, Баку, Азербайджан*

***Резюме.*** В статье представлены результаты исследования, проведенного с целью проанализировать основы социально-демографических характеристик суицидов и изучения ряда макро- и микросоциальных факторов, влияющих на формирование суицидального поведения. Объектом исследования явились 205 военнослужащих, страдающие психическими расстройствами, которые были госпитализированы в психиатрическое отделение Главного Клинического Госпиталя Министерства Обороны, с 2001 по 2011 год, в связи с различными формами суицидального поведения. В результате исследования по семейному положению военнослужащих, совершивших попытку самоубийства, среди рядового состава не было выявлено различий между военнослужащими, выросшими в полной семье 47,4% (64 человека) и военнослужащими, воспитывавшимися в неполной семье 52,6% (71 человек), соответственно ($p>0{,}05$). В результате исследования достоверность не определялась по степени гармоничности семьи военнослужащих, совершивших попытку самоубийства среди рядового состава ($p>0{,}05$). По заключению автора, суицидальная попытка имеет разную направленность в зависимости от структурных особенностей семьи офицерского и рядового состава. Одним из основных влияющих факторов формирования изменений в поведении, в том числе причиной самодеструктивного поведения и его последней границы – суицидальной попытки, был неправильный родительский контроль и воспитание в семье.

**E.S.Mehdiyev**

## THE INFLUENCE OF MARITAL STATUS ON THE SUICIDAL BEHAVIOUR OF A SERVICEMANS

*Main Clinical Hospital of the Ministry of Defense. Baku, Azerbaijan*

***Summary.*** The article presents the results of a study conducted to analyse the basis of the socio-demographic characteristics of suicides and to study a number of macro and micro social factors influencing the formation of suicidal behaviour. The object of the study was 205 military personnel suffering from mental disorders who were hospitalized in the psychiatric department of the Main Clinical Hospital of the Ministry of Defence, from 2001 to 2011, due to various forms of suicidal behaviour. As a result of a study on the marital status of servicemen who attempted suicide, among the rank and file, no differences were found between servicemen who grew up in a complete family 47.4% (64 people) and servicemen from an incomplete family 52.6% (71 people), respectively ($p>0.05$). As a result of the study, reliability was not determined by the degree of harmony in the family of servicemen who attempted suicide among the rank and file ($p>0.05$). According to the author's conclusion, a suicide attempt has a different focus depending on the structural features of the family of officers and enlisted personnel. One of the main influencing factors in the formation of changes in behaviour, including the cause of self-destructive behaviour and its last limit - a suicidal attempt, was improper parental control and upbringing in the family.

***Müəlliflə əlaqə üçün:***
**Elşad Sabir oğlu Mehdiyev,** Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı, Bakı, Azərbaycan
***E-mail:*** elshadmehdiyev@yahoo.com

ORCID: https://orcid.org/0000-0001-8725-9143